# “Təfəkkür” Universitetində 20 yanvar şəhidlərinin anım mərasimi keçirildi






*Yanvarın 16-da “Təfəkkür” Universitetində 20 yanvar şəhidlərinin anım mərasimi keçirildi. Universitetin professor – müəllim heyətinin və tələbələrin iştirak etdiyi tədbirdə əvvəlcə 20 yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra Universitetin rektoru professor Rahim Hüseynov 1990 – ilin 20 Yanvar faciəsinin Azərbaycan xalqının tarixinə şərəf və qəhrəmanlıq səhifəsi kimi yazıldığını dedi. Keçmiş sovet imperiyasının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror aktının insanlığa qarşı törədilmiş ən ağır cinayət olduğunu söylədi. O dəhşətli faciə zamanı Respublika Səhiyyə Nazirinin müavini vəzifəsində işləyən professor Rahim Hüseynov həmin hadisələrin canlı şahidi kimi dinc və silahsız əhaliyə necə divan tutulduğundan, səhiyyə işçilərinin yaralılara göstərdikləri xidmətdən, insanların yaralılara qan vermək üçün necə növbəyə durduqlarından danışdı.*

*Rektor bildirdi ki, Azərbaycan Xalqı 20 yanvarda hərbi, siyasi, mənəvi faciəyə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq oldu, vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərdi, Azərbaycan övladları öz fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifələr yazdılar. 20 Yanvarın xalqımızın cəsarətli addımlarını əks etdirən səhifələrdən biri olduğunu deyən rektor faciəyə ümummilli lider Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verildiyini, faciə qurbanlarının xatirəsinin hər il dövlət səviyyəsində anıldığını, Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini tədbir iştirakçılarının nəzərinə çatdırdı.*

*Tədbirdə çıxış edənlər 1990-cı ilin Qanlı yanvarının xalqımızın tarixinə həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yazıldığından danışdılar.*

**16.01.2019**